## Görkəmli şəxslər Səməd Vurğun haqqında

Biz Səməd Vurğunun ruhu qarşısında baş əyərək deyə bilərik: əziz şairimiz, sənin canın qədər sevdiyin Azərbaycan bu gün müstəqil dövlətdir.

Səməd Vurğun öz xalqının oyanışına, milli dirçəlişinə xidmət edibdir. S.Vurğun o vaxt bizim hamımız üçün nümunə – xalqına, millətinə, ölkəsinə, Vətəninə sədaqətlilikdə nümunə idi.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Səməd Vurğun Azərbaycanın ədəbi fikir salnaməsində yeni parlaq mərhələ başladan görkəmli sənətkardır. Çoxşaxəli fəaliyyətinin qayəsində azərbaycançılıq amalı dayanan şair nəğməkarı olduğu Odlar diyarını alovlu məhəbbətlə tərənnüm etmişdir. Onun dillər əzbərinə çevrilmiş "Azərbaycan" şeiri hər bir azərbaycanlının ürəyindəki Vətən sevgisinin poetik ifadəsidir. Böyük söz ustası ana dilinin saflığı uğrunda dönmədən mübarizə aparmış, xalq yaradıcılığının tükənməz xəzinəsindən bəhrələnməklə bu dilin bütün məna gözəlliklərini özündə əks etdirən, dərin bəşəri-ictimai məzmuna malik qiymətli əsərlər ərsəyə gətirmişdir. Səməd Vurğunun milli poeziyanı yüksəklərə qaldıran romantik və fəlsəfi məzmunlu bənzərsiz lirikası Azərbaycan ədəbiyyatının qızıl fonduna daxildir.

**İlham Əliyev,**
*Azərbaycan Respublikası Prezidenti*

Bu görkəmli Xalq şairinin heç bir əsərini, heç bir misrasını, heç bir tədbirini xalq mənafeyindən ayrı düşünmək mümkün deyildir. Səmədin özü kimi əsərləri də, düşüncə və arzuları da qırılmaz tellərlə xalqa bağlıdır.

**Abdulla Şaiq,**
*Şair, ədəbiyyatşünas*

"Vaqif" XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır… Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır.

**Məhəmməd Əmin Rəsulzadə,**
*İctimai-siyasi xadim, publisist*

Mən poeziyanı musiqisiz təsəvvür edə bilmirəm. Bu mənada Səmədin şeirləri əvəzsizdir.

**Üzeyir Hacıbəyli,**
*Bəstəkar*

Səməd Vurğunun şeirlərinə azca diqqətlə baxdıqda, onun dühası aydın görünür: bu şeirlər nəzərə səhl və sadə gəlir, lakin onları yazmaq asan deyil. Səməd Vurğunun şeirləri hikmətamizdir.

**Seyid Cəfər Pişəvəri,**
*Cənubi Azərbaycanın dövlət xadimi*

Səməd Vurğun yaradıcılığı qalib gələn Azərbaycan şeirinin həm ideya, həm də forma etibarilə böyüyüb yüksəlməsini, milyonların qəlbini və ruhunu ifadə edən qüvvətli, bədii bir silaha çevrilməsini əks etdirir.

**Məmməd Arif,**
*Akademik*

Orduda belə bir qayda var: şəhid olan nadir qəhrəmanın adı hissənin siyahısında hər səhər yoxlama zamanı başda çəkilir. Ədəbiyyat ordumuzun işində də müasir şeirimizin qəhrəmanı Səməd Vurğun buna bənzər şərəfli bir yer tutmuşdur.

**Mir Cəlal,**
*Professor*

Hər xalqın ədəbiyyatında elə yazıçılar var ki, birdən onların bir neçəsini ədəbiyyatdan götürsək, qətiyyən yeri görünməz. Lakin elə tək-tək sənətkarlar var ki, onların birinin yoxluğu ilə bir xalqın ədəbiyyatında uçurum əmələ gələ bilər. Səməd Vurğun belə sənətkar, belə şəxsiyyətdir. Onsuz bizim ədəbiyyatdan danışmaq mümkün olmazdı.

**Mehdi Hüseyn,**
*Xalq yazıçısı*

Səməd Vurğun ədəbiyyatımızın böyük istedadlı nümayəndəsi olmaqla bərabər nadir bir şəxsiyyət idi. Yüksək insani duyğulara, böyük ürəyə malik idi. Sözü bir, özü bütöv adam idi. İnsanların həmişə yaxşı cəhətlərini görməyə çalışırdı.

**İlyas Əfəndiyev,**
*Xalq yazıçısı*

Səməd Vurğun poeziyası – Azərbaycan xalqının məğrur ürək döyüntüsüdür. Xalq əbədi olduğu kimi, Vurğun poeziyası da əbədi və ölməzdir. Milli sənətə dərin hörmət onu dünya sənətinə dərin köklərlə bağladı. Səməd Vurğun milli olduğu qədər beynəlmiləl, beynəlmiləl olduğu qədər də milli sənətkardır!

**Nəbi Xəzri,**
*Xalq şairi*

Səməd Vurgun yalnız poeziya aləmində deyil, ümumən ədəbiyyatımızın ön cəbhəsində getmiş və ölməz bədii əsərləri, məruzə və nitqləri, məqalə və çıxışları ilə ədəbiyyatımızı və ictimai fikrimizi istiqamətləndirmişdir. Yalnız müasir mövzuda deyil, tarixi mövzuda yazdığı əsərlərində də həmişə müasir olmuş, tarixi mövzuları da zamanın tələbləri baxımında işləmiş, bunlarabugünün gözü ilə baxmağı bacarmışdır.

**Bəxtiyar Vahabzadə,**
*Xalq şairi*

İnsanlara xeyirxahlıq və işıq rəmzi olan, daim yanan və yaşamağın mənasını da onda görən quşlara Səməndər adı vermişlər. Səməd Vurğun xalq yolunda, böyük ədəbiyyat və sənət yolunda daim yanan və ətrafına şölə saçan Səməndər quşu idi.

**Qulu Xəlilov,**
*Professor*

Səmədin özü ilə şəxsən tanışam. Yazdıqları da xoşuma gəlir. Hissiyyatlı, həm də cəsarətli şairdir.

**Aleksey Tolstoy,**
*Rus yazıçısı*

Səmədin üzünü gördüyüm zaman,
Cismimə can gəldi, gözümə işıq.
Şairlər vətəni Azərbaycan da,
Onun sənətilə tapmış yaraşıq.

**Əbülqasim Lahuti,**
*Tacik əsilli İran şairi,*
*Tacikistanın Milli Qəhrəmanı*

Səməd Vurğunun şeirlərini oxuyarkən biz onun özünü görür, səsini eşidir, qəlbinin hərarətini duyuruq. Elə bil şəffaf güzgüdə bütün geniş, hüdudsuz səmanı əks etdirən mavi gölə baxırsan. Mənə elə gəlir ki, isti yay gecəsində eyvana çıxmışam. Hər tərəfdən növbənöv güllərin, növbənöv meyvələrin insanı məst edən ətri gəlir.

**Yan Sudrabkaln,**
*Litva şairi*

Səməd Vurğun ədəbiyyatda həmişə yüksək, romantik, poetik üslubu bəzi ədəbiyyatçıların qanadsız təsvirçiliyinə qarşı qoymuş və bu üslubu ehtirasla müdafiə etmişdir... O, yalnız böyük poetik istedada deyil, həm də parlaq, dərin zəkaya və böyük ürəyə malik insan idi.

**Maksim Rılski,**
*Ukrayna şairi*

Mən Səməd Vurğunun Sovet Yazıçılarının II Ümumittifaq qurultayında nitqini dinlədikdə dünyada baş verən böyük dəyişikliklər barədə fikirləşirdim… O, necə də böyük bir ilham və ehtirasla böyük sovet şairlərini epik poemalar və mənzun romanlar yaratmağa ruhlandırırdı. Səməd Vurğun müasir dünya ədəbiyyatının iftixarıdır.

**Lui Araqon,**
*Fransız şairi*

Səməd Vurğun Azərbaycan sovet poeziyasının balı və südü, duzu və çörəyidir, öz xalqının canlı təcəssümüdür. Onun parlaq, qüdrətli istedadı önündə baş əyirəm. Səməd Vurğunun adı bizim hamımıza yaxın və əzizdir. Onun poeziyasının sönməz şəfəqi Azərbaycan və gürcü xalqlarının nəhayətsiz dostluğu yolunda əbədi şölə saçacaqdır.

**Giorgi Leonidze,**
*Gürcüstanın Xalq şairi*

Səməd Vurğun – qardaş dillərimizin böyük Xalq şairi – dillərimiz yaşadıqca əbədi yaşayacaqdır. Səməd Vurğun poeziyamızın nəhəng planetidir. Bu planetin günəşi, ulduzları sönməzdir.

**Nazim Hikmət,**
*Türk şair, yazıçı*

Azərbaycan – qədim odlar ölkəsi xoşbəxtdir ki, dahi Səməd Vurğunu yetirib. Səməd başdan-başa istedad idi, yalnız şeir üçün doğulmuşdu…Qardaş Azərbaycan xalqının misilsiz mənəvi keyfiyyətlərini dostum Səmədin poeziyası vasitəsilə öyrənmişəm.

**Qafur Qulam,**
*Özbəkistanın Xalq şairi*

Elə təkcə onun xarici görünüşünün özu bədii əsər üçün müdrik bir obraz idi. O, gözəl və əvəzsiz insan idi. Onun ölümü biz yazıçıların qəlbinə, ürəyinə dağ çəkdi…

**Mixail Şoloxov,**
*Rus yazıçı,akademik*

O, təkcə qardaş Azərbaycanın yox, bütün sovet xalqlarının şairi idi. Onun müdrik ağlı, həssas, xeyirxah ürəyi vardı və buna görə də dostları Səməd Vurğuna dərin məhəbbət bəsləyirdilər.

**Petrus Brovka,**
*Belorusiyanın Xalq şairi*

Səməd Vurğun böyük hərflərlə yazılan əsl insan idi. O, həyatı, insanı çox yüksək qiymətləndirirdi və buna görə də hamının ürəyinə tez yol tapırdı. Bəzən sənə o qədər sadə görünürdü ki, belə bir nəhəng istedad sahibi olduğunu təsəvvürə gətirə bilmirdin… Azərbaycan xalqına eşq olsun ki, adı böyük hərflərlə yazılan bir İnsanı – mənim Səməd Vurğunumu dünyaya gətirmişdir!

**Yemilian Bukov,**
*Moldav şairi*

O, xalqına təkcə şeiri ilə deyil, qəlbinin bütün hərarəti ilə şairliyin bütün nəğməkarlıq qüvvəsi ilə xidmət etmişdir. Onun ecazkar orijinal lirikası, dramları misilsiz qiymətə malikdir. Bu əsərlər Azərbaycan poeziyasının üslubunun və dilinin formalaşmasında böyük rol oynamış, bütün çoxmillətli ədəbiyyatımızın inkişafına müsbət təsir göstərmişdir.

**Maksim Tank,**
*Belorus şairi*

Səməd gözəl şair, mərd insan və sədaqətli dost idi. O, həqiqi xalqlar dostluğunun, şairlər arasındakı dostluğun, mərdanə dostluğun nə demək olduğunu çox gözəl bilirdi. Məhz buna görə də ölkəmizin hər yerində və onun hüdudları xaricində Səmədin çoxlu dostları var.

**Konstantin Simonov,**
*Rus yazıçısı*

Qardaşımız Səməd Vurğun… Mənim qardaşım Səməd… O mənim çox yadımdadır və onu iftixarla xatırlayıram…Mən onu Azərbaycanın yox, dünyanın ən böyük şairi, gözəl insanı hesab edirəm. Onun gözəl poeziyası heç vaxt solmayacaq. Biz ana Vətəni, xalqı hərarətlə sevməyi Səməd Vurğundan öyrənmişik. İnsanda nə qədər yaxşı xüsusiyyətlər varsa, hamısını bu pirə, peyğəmbərə aid etmək olar.

**Qaysın Quliyev,**
*Kabarda-Balkar MR Xalq şairi*

Səməd Vurğun Azərbaycan poeziyasının ağ saçlı qartalı, Azərbaycan sovet ədəbiyyatının atası və oğludur. Azərbaycan və Səməd Vurğun bir-birindən ayrılmazdır. Azərbaycan və Səməd Vurğun eyni məfhumdur, çünki Səməd xalqının ən yaxşı xüsusiyyətlərini – onun sadəliyini, cəsarətini, dərin zəkasını və istedadını təcəssüm etdirir.

**Rəsul Həmzətov,**
*Dağıstanın Xalq şairi*

Dünyanın mədəniyyət irsinə Qərbdə Homerdən Puşkinədək, Şərqdə Füzulidən Səməd Vurğunadək neçə-neçə nəsillərin təxəyyül qüdrəti və təcrübəsi sərf olunmuşdur.

**Çingiz Aytmatov,**
*Qırğızıstanın Xalq yazıçısı*

Mən Səməd Vurğunun ədəbi şöhrəti, onun ədəbiyyatda mövqeyi haqqında onu deyə bilərəm ki, bu "Vətən sevgisi ilə yanan sənətkar" müasir Azərbaycan ədəbiyyatının milli ənənələri ilə müasirliyi özündə birləşdirən ən görkəmli nümayəndəsidir.

**Vilfrid Brants,**
*Alman alim*

Səməd Vurğunu təkcə Azərbaycanda, yaxud Sovet İttifaqında deyil, xarici ölkələrdə də tanıyırlar. Mən ərəb ölkələrinə, İrana və Asiyanın digər ölkələrinə çox səfərlər etməli olmuşam, sovet ədəbiyyatından söz düşəndə hər yerdə Səməd Vurğunun da şeirini eşitmişəm.

**Anuar Alimcanov,**
*Qazaxıstan şairi*

Şeir yaşadıqca, söz yaşadıqca, Vurğun kəsiləcək Vurğuna hər kəs.

**İlhami Emin,**
*Yuqoslav şairi*

Mən Səməd Vurğundan danışanda onu cismən saf bilirəm, axı həqiqi şairlər heç vaxt ölmür, onlar yalnız həyatdan yaddaşlara köçürlər.

**Boris Oleynik,**
*Ukrayna şairi*

Mən Səməd Vurğunla Moskvada, Yazıçılar İttifaqında, İttifaqın plenum və iclaslarında, Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə, SSRİ Ali Sovetinin sessiyalarında, Ümumdünya Sülh Konqresində teztez görüşmüşəm. Onu həmişə sadə, xeyirxah və nəcib, səmimi dost və gözəl şair kimi görmək olardı. Poeziyanı sözün əsl mənasında nə qədər sevmək mümkümdürsə, bir o qədər böyük məhəbbətlə sevirdi. Poeziyasız onun həyatını təsəvvür etmək çətin idi. O, qardaş xalqları yaxından tanıdığı və alqışladığı böyük istedad idi… Səməd Vurğunun nəğmələri, onun adı, bəli, şair və insanın adı şərəfli əbədiyyətə qovuşacaqdır…

**Antanas Venslova,**
*Litva şairi*

Səməd Vurğunla mən, minlərlə yaşıdlarım kimi, hələ uşaqlıq çağlarından tanışam. Monqol dilinə tərcümə edilmiş “Zəncinin arzuları” poemasını monqol uşaqlarının necə maraqla oxuduğunu indi də xatırlayıram. Bu alovlu əsər bizim dərsliklərə salınmışdır.

**Damdinsurengiyn Urianxay,**
*Monqol şairi*

Füsunkar Azərbaycanı, ağ saçlı Qafqazı vəsf edən Səməd Vurğun təkcə bizim yox, bütün dairələrin və gələcək nəsillərin müasiri olaraq qalır və qalacaq. Mən onun poeziyasını hədsiz dərəcədə sevirəm. Dünyaya belə bir ilhamlı nəğməkar bəxş etmiş torpağa – Azərbaycan torpağına və xalqına minnətdarlığımı bildirirəm.

**Uolter Mey,**
*İngilis şairi*

Bütün dünya xalqları kimi, Polşa xalqı da Azərbaycan şairi Səməd Vurğunun poeziyasını çox sevir. Elə təkcə "Azərbaycan" şeirinə görə ona xalq nəğməkarı demək mümkündür. Çünki S.Vurğun burada Vətənin ən əlamətdar keyfiyyətlərini ümumiləşdirir.

**A.Zayonçkovski,**
*Polyak şərqşünas-alimi*

"Vurğun" ləqəbi seçib əsərlərini belə imzalamaq necə də gözəl, həm də cəsur bir addımdır. Özü də Şərq poeziyası üçün ənənəvi gözəlliyin vurğunu yox, yaradıcısı olduğun yeni həyatın vurğunu…

**Georgi Strumski,**
*Bolqar yazıçısı*